# "İrəvan xanlığının mətbəxi" - qədim Azərbaycan yurduna dair dəyərli ensiklopedik mənbə

İstanbulda yenicə nəşr olunmuş "İrəvan xanlığının mətbəxi" kitabının ingilis dili versiyası Azərbaycan Milli Kulinariya Assosiasiyanın (AMKA) ölkəmizin tarixi, mədəniyyəti və mətbəxini beynəlxalq arenada tanıtmaq istiqamətində atdığı növbəti addımdır. Kitabın ingilis dilindəki nəşrinə xeyriyyəçi Rəşid Hüseynov dəstək olmuşdur. "İrəvan xanlığının mətbəxi" kitabının müəllifləri Azərbaycan Milli Kulinariya Assosiasiyasının sədri, Əməkdar mədəniyyət işçisi Tahir Əmiraslanov, AMKA-nın fəxri üzvü, Əməkdar mədəniyyət işçisi Oruc Əliyev və AMKM-in baş texnoloqu, Respublika Gənclər Mükafatı laureatı Aygül Əsgərovadır.




Çoxillik tədqiqatların məhsulu olan bu kitab istər tarixi-etnoqrafik, istərsə də milli-mənəvi baxımdan çox aktual bir mövzuya - İrəvan azərbaycanlılarının, indi Ermənistan adlanan dövlətin ərazisinin yerli sakinləri olmuş soydaşlarımızın qədim mətbəx mədəniyyətinə həsr edilib.

Bu fikirlər Bakı Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru, kitabının layihə rəhbəri Qivami Rəhimlinin AZƏRTAC-a təqdim etdiyi "İrəvan xanlığının mətbəxi" - qədim Azərbaycan yurduna dair dəyərli ensiklopedik mənbədir" məqaləsində yer alıb.

Yeni Azərbaycan.-2025.- 5 iyun, №96.- S.8.